AZƏRBAYCAN RESPUBLİKASININ
MƏRKƏZİ BANKI

# DAYANIQLI MALİYYƏ HESABATI

2023-cü il üzrə



# Mündəricat

Ön söz..........3

Hesabat haqqında..........3

BİRİNCİ BÖLMƏ

1. Ölkənin dayanıqlı sosial-iqtisadi inkişaf strategiyası..........5

2. Maliyyə sektorunun imkanları və risklər..........6

İKİNCİ BÖLMƏ

3. Mərkəzi Bankın dayanıqlı maliyyə gündəliyi..........7

3.1. Potensialın formalaşdırılması..........9

3.2. Ekosistemin və tənzimləmə çərçivəsinin formalaşdırılması..........10

3.3. Iqlim və ESG risklərinin qiymətləndirilməsi..........11

ÜÇÜNCÜ BÖLMƏ

4. Növbəti addımlar..........13

Əlavə 1. Azərbaycan üçün aktual iqlim dəyişmələri və ekoloji risklər və fürsətlər..........14

# Ön söz

İqlim dəyişikliyi hazırda qlobal gündəmin ən aktual çağırışlarından biridir. Aşağı karbonlu gələcək artıq bizdən bu gün qəti qərarlar qəbul olunmasını tələb edir. Bu tələb iqtisadi transformasiyanı sürətləndirməklə alışdığımız maliyyə mənzərəsinə yeni bir yanaşmanı formalaşdırır.

Maliyyə sektoru ekzistensial təhlükənin təsirinin mitiqasiyası və dayanıqlı gələcəyə keçidin sürətləndirilməsi istiqamətində böyük potensiala malikdir. Maliyyə sistemi iqtisadiyyatların dekarbonizasiyasının maliyyələşdirilməsindəki rolu sayəsində karbon emissiyalarının azaldılması üzrə qlobal təşəbbüslərin əsas iştirakçısı mövqeyində qərarlaşır. Bu məqamda mərkəzi bankların üzərinə böyük bir məsuliyyət düşür. Məhz onlar dayanıqlı maliyyə axınlarının təmin edilməsi və bütövlükdə maliyyə sisteminin Paris Sazişi beynəlxalq təşəbbüsünün məqsədlərinə nail olmaq səylərinin dəstəklənməsi istiqamətində müstəsna rol oynayır.

Hazırda dünya ölkələrinin mübarizə apardığı yüksək inflyasiya trendi mərkəzi bankların gündəliklərində əsas məsələlərdən olsa da, dayanıqlı maliyyəyə keçidin təmin edilməsi üzrə tədbirlər də davam etdirilməkdədir. İqlim dəyişmələri və digər ekoloji risklər fonunda müvafiq iqtisadi fəaliyyətlər üzrə adaptasiyanın qaçılmaz olması hər kəsə məlumdur. Sözsüz ki, dayanıqlı maliyyəyə keçid iqtisadiyyatın dinamikasına uyğun baş verəcək və yeni imkanlar gətirəcəkdir. Bu keçid zamanı mərkəzi bankların rolu isə transformasiya dövründə müvafiq mitiqasiya və nəzarət mexanizmlərini təmin etməkdir. Əsas diqqət iqlim dəyişmələri və ekoloji risklərə yönəldilsə də, sosial və idarəetmə amilləri də paralel olaraq nəzarətdə saxlanılmaqdadır.

Mərkəzi Bank həm qlobal çağırışlara, həm də Azərbaycanın yaşıl artım ölkəsinə transformasiyası planlarına uyğun olaraq maliyyə sektorunun dayanıqlı maliyyəyə keçidinin dəstəklənməsini özünün strateji prioritetləri sırasına daxil etmişdir. Əsas diqqətimizi Mərkəzi Bankın *"inkişaf"* korporativ dəyərinə uyğun olaraq maliyyə sektorunun dinamik dəyişikliklərinin effektiv idarə edilməsinə yönəltməyi, maliyyə sabitliyini təmin etməyi, habelə iqtisadiyyatın dayanıqlı inkişafına töhfə verməyi hədəfləyirik. Biz, hesab edirik ki, yaşıl maliyyə sahəsində innovasiyaları təşviq etməklə iqlim dəyişikliyinin yaratdığı sistem risklərini azalda, fəaliyyətimizi dayanıqlılıq məqsədləri ilə uyğunlaşdırmaqla daha geniş maliyyə icması üçün presedent yarada bilərik. Məhz ümumi səylər nəticəsində iqtisadi rifahın ekoloji dayanıqlılıqla ahəngdə inkişaf etdiyi bir gələcəyi formalaşdırmaq mümkün olacaq.

Dayanıqlı Maliyyə Hesabatı Mərkəzi Bank tərəfindən maliyyə sabitliyinin təmin edilməsi mandatına uyğun olaraq dayanıqlı maliyyə gündəliyi üzrə görülmüş işləri əhatə edir. Bu Hesabat həmçinin Mərkəzi Bankın dayanıqlı maliyyə üzrə görülmüş işlərə dair maliyyə sektoru, cəmiyyət və bütün aidiyyəti tərəflər qarşısında şəffaflığın təmin edilməsi məqsədini daşıyır. Mərkəzi Bank dayanıqlı maliyyə istiqamətində gördüyü işləri müvafiq aidiyyəti tərəflərlə taksonomiyanın hazırlanması, maliyyə sektorunda iqlim dəyişmələri və ekoloji risklərinin qiymətləndirilməsi, dayanıqlı maliyyə axınları üçün adekvat ekosistemin formalaşdırılması və dayanıqlılıq üzrə məlumatların açıqlanmasının dəstəklənməsi üzrə möhkəmləndirməyi hədəfləyir. 2024-cü ildə ölkəmizdə keçiriləcək beynəlxalq miqyaslı mötəbər COP29 tədbiri dayanıqlı maliyyə ekosisteminin formalaşdırılmasına və xarici investorlar tərəfindən yaşıl maliyyələşmənin cəlb edilməsinə öz müsbət təsirini göstərəcəkdir.

**Taleh Kazımov**

**Mərkəzi Bankın sədri**

## Hesabat haqqında

**Bu hesabat Mərkəzi Bankın maliyyə sektorunun dayanıqlı maliyyə modelinə keçidi üzrə 2023-cü il ərzində gördüyü işləri əhatə edir.** Bu hesabat qabaqcıl beynəlxalq təcrübə rəhbər tutulmaqla dayanıqlı maliyyə sahəsində şəffaflığın təmin edilməsi məqsədilə hazırlanmışdır. Bu hesabatla Mərkəzi Bank dayanıqlı maliyyənin tətbiqini maliyyə sektorunun inkişaf prioritetləri sırasına daxil etməsi və "Dayanıqlı Maliyyə üzrə Yol Xəritəsi: 2023-2026" icrası ilə bağlı gördüyü işlər barədə maliyyə bazarları iştirakçılarının, maraqlı tərəflərin və geniş ictimaiyyətin məlumatlandırılmasını hədəfləyir. İlk dəfə hazırlanan Dayanıqlı Maliyyə Hesabatı dövri olaraq hazırlanaraq ictimaiyyətə açıqlanacaqdır.

**Hesabat milli səviyyədə təşəbbüslər, görülən işlər və planlaşdırılan tədbirlər olmaqla üç bölmədən ibarət şəkildə strukturlaşdırılmışdır**. *Birinci bölmədə* ölkənin dayanıqlı sosial-iqtisadi inkişaf gündəliyi və dayanıqlı maliyyə üzrə maliyyə sektorunun fürsətləri, habelə iqlim dəyişmələrinin yaratdığı risklər; *İkinci bölmədə* Mərkəzi Bankın dayanıqlı maliyyənin tətbiqi ilə bağlı gördüyü işlər; *Üçüncü bölmədə* isə görüləcək növbəti addımlar əhatə edilmişdir.

# BİRİNCİ BÖLMƏ

## 1. Ölkənin dayanıqlı sosial-iqtisadi inkişaf strategiyası

**Azərbaycan iqlim dəyişmələri ilə bağlı beynəlxalq təşəbbüslərində iştirak edir və milli inkişaf prioritetlərində nəzərə alır**. Azərbaycan 1995-ci ildən etibarən BMT-nin İqlim Dəyişmələrinə dair Konvensiyasının (UNFCCC) tərəfi kimi çıxış edir. 2016-cı ildə BMT-nin İqlim Dəyişmələri haqqında Çərçivə Konvensiyasına təqdim edilən MTP sənədinə əsasən Azərbaycan baza ili kimi götürülən 1990-cı illə müqayisədə 2030-cu ilədək istixana qazlarının miqdarını 35% azaltmağı hədəfləyir. Həmçinin, BMT-nin 2030-cu il üçün Dayanıqlı İnkişaf Gündəliyindən irəli gələn öhdəliklərin icrası üçün 2016-cı ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılmışdır.

BMT tərəfindən 2021-ci ildə Qlazqo şəhərində keçirilən beynəlxalq İqlim Dəyişikliyi Konfrasında (COP26) yeni hədəflər müəyyən edilmişdir. Belə ki, 2050-ci ilə qədər Azərbaycan istixana qazlarının emissiyasını 40%-dək azaldılmasını və işğaldan azad edilmiş ərazilərdə "sıfır emissiya zonasının" yaradılmasını yeni hədəf olaraq müəyyən etmişdir. Bu hədəflərə nail olmaq üçün 2030-cu ilədək bərpa olunan enerjinin ümumi enerji istehsalında payının 30%-ə çatdırılması nəzərdə tutulmuşdur.

**Dayanıqlı İnkişaf Məqsədləri (DİM) ölkənin 2030-cu ilədək milli inkişaf priotetlərində nəzərə alınmışdır.** Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: iqtisadi inkişafa dair Milli Prioritetlər"də növbəti onillikdə reallaşdırılmalı olan beş milli prioritet müəyyən edilmişdir:

1. dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
2. dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
3. rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
4. işğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
5. təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi.

Qeyd edilən Milli Prioritetlər, eyni zamanda, BMT-in "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərin icrası istiqamətində də xüsusi əhəmiyyət kəsb edir. Milli prioritetlərin realizasiyası məqsədilə hazırlanmış "2022-2026-cı illər üçün Sosial-İqtisadi İnkişaf Strategiyası" DİM-in həyata keçirilməsinə yönəlmişdir. Azərbaycan hökumətinin dayanıqlı inkişaf üzrə islahatlar gündəliyi təmiz texnologiyaların tətbiqinə, təmiz enerji mənbələrindən istifadənin təşviqinə, çirklənmiş ərazilərin təkrar emalına və reabilitasiyasına yönəlmişdir.

**Azərbaycan iqtisadiyyatı üçün aşağı karbon tutumlu iqtisadi sahələrə keçid nəticəsində yaranacaq keçid riski ilə yanaşı, fiziki risklər də əhəmiyyətlidir (Əlavə 1).** Dünya Bankının araşdırmasına əsasən dağlıq coğrafi əraziyə malik Azərbaycan üçün artan temperatur (son 100 ildə orta illik temperaturlar 0,4-1,3 C-yə qədər artmışdır) və dəyişkən yağıntı norması fiziki risklərin (daşqın, quraqlıq, torpaq sürüşmələri, istilik dalğaları və s.) mitiqasiyasını və adaptasiyasını aktuallaşdırır.

**Azərbaycanda bərpa olunan enerji mənbələrindən istifadənin artırılması prioritet istiqamətlərdəndir.** 2020-ci ildə EN yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi yaradılmışdır. Həmçinin, 2021-ci ildə "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında Qanun" təsdiq edilmişdir. Bundan əlavə bioenerji, günəş və külək enerjisi kimi bərpa olunan enerji stansiyaları (məsələn, Naxçıvan Günəş Elektrik Stansiyası, Pirallahı Günəş Elektrik Stansiyası, Yeni Yaşma Külək Elektrik Parkı və s.) istifadəyə verilmişdir və bu istiqamətdə işlər davam etdirilməkdədir.

## 2. Maliyyə sektorunun imkanları və risklər

**Qlobal iqtisadiyyatda "yaşıllaşma və karbonsuzlaşma" meyilləri Azərbaycanın qeyri-resurs iqtisadiyyatının inkişafı və yaşıl maliyyələşmə üçün imkanlar yaradır.** Qeyd olunan meyillərin sürətlənməsi ortamüddətli və uzunmüddətli dövrdə ölkənin neft gəlirlərinə təsir etməsi qaçınılmazdır. Qlobal enerji bazarında neftə tələbin düşməsi hesabına azalan neft gəlirlərinin kompensasiyasını zəruri edir. İqlim dəyişmələri, habelə yaşıllaşma və karbonsuzlaşma siyasəti iqtisadi xərclərlə yanaşı yaşıl maliyyələşmə üzrə yeni fürsətlər də yaradır.

**Özəl sektor nümayəndələrinin öz biznes modellərini yaşıllaşma və karbonsuzlaşma siyasətinə uyğunlaşadırması məqsədilə innovasiyaların və yaşıl texnologiyanın tətbiqi kimi təşəbbüslərinin maliyyələşdirilməsi maliyyə sektoru üçün imkanlar yaradır**. Bu imkanların reallaşdırılması məqsədilə maliyyə sektorunun iqlim dəyişmələri həmçinin digər ekoloji risklərinin idarə edilməsi və yaşıl maliyyənin təmin edilməsi üçün adekvat ekosistemin formalaşdırılması zəruridir.

**Dünya Bankının ilkin təhlil nəticələrinə əsasən fiziki və keçid riskləri maliyyə bazarlarına, xüsusilə bank sektoruna təsirsiz ötüşməyəcəkdir.** Belə ki, enerji intensivliyi yuxarı olan iqtisadi sektorlar artan istehsal xərcləri və ekoloji təmiz fəaliyyətə keçid fonunda ödəmə qabiliyyətində çətinliklə üzləşə bilər (keçid riskləri). Kəskin təbiət hadisələri fonunda aktivlərin birbaşa və dolayı zərərə məruz qalması, habelə təchizat zənciri və biznes modelində dəyişikliklər[1] baş verə bilər (fiziki risklər). İlkin qiymətləndirmələrə əsasən bank sektorunun kredit portfelinin 55%-i iqlim dəyişmələri ilə əlaqədar iqtisadi sektorlar[2] təşkil edir və bu maliyyə sisteminin fiziki və keçid risklərinə qarşı vaxtında adekvat tədbirlərin görülməsini zəruri edir. Maliyyə institutları tərəfindən fraqmentar şəkildə dayanıqlı/ yaşıl maliyyələşmə tədbirləri görülməkdədir. Yaşıl maliyyələşmə portfeli kiçik olsa da, maliyyə institutları tərəfindən bu istiqamətdə maraq artmaqdadır və portfelin həcminin genişlənməsi istisna edilmir.

Qeyd edilənləri nəzərə alaraq, maliyyə sektorunun uzunmüddətli dövrdə ESİ risklərinə dayanıqlığının təmin edilməsi dayanıqlı və yaşıl maliyyənin yaratdığı fürsətlərin reallaşdırılmasının təmin edilməsi üçün Mərkəzi Bank dayanıqlı maliyyəyə keçidi maliyyə sektorunun inkişaf prioritetləri sırasına daxil etmişdir.

---

[1] Məsələn, kənd təsərrüfatı fiziki risklərə həssas iqtisadi sektor kimi qiymətləndirilir

[2] İqlim dəyişmələri ilə əlaqədar iqtisadi sektorlar (CPRS – Climate Policy-Relates Sectors) dedikdə yüksək istixana qazı emissiyası olan sahələr (enerji, sənaye prosesləri, kənd təsərrüfatı, tullantılar və s.), yüksək karbon intensivliyi olan sahələr (mədənçilik, tikinti, nəqliyyat), həmçinin keçid risklərinin transmissiya kanallarına həssas olan iqtisadi sektorlar nəzərdə tutulur.

# İKİNCİ BÖLMƏ

## 3. Mərkəzi Bankın dayanıqlı maliyyə gündəliyi

**Sosial-iqtisadi inkişaf strategiyasının həyata keçirilməsi və iqtisadiyyatın əsas sahələri üzrə müəyyən edilmiş milli prioritetlərin reallaşdırılması üçün ESİ prinsiplərinə söykənən maliyyə axınlarının təmin edilməsi zəruridir.** Son illərdə iqlim dəyişmələri və ekoloji risklərin fəsadları və əhəmiyyətli maliyyə itkisinə səbəb olması fonunda, maliyyə institutları tərəfindən strateji qərarlarının qəbul edilməsi prosesinə dayanıqlı maliyyə amillərin inteqrasiyası aktuallaşmışdır. Dayanıqlı maliyyə yeni paradiqma olmaqla maliyyə sektorunun ESİ faktorları üzrə risklərə adaptasiyasını təmin etməyə yönəlmişdir. Maliyyə sisteminin dayanıqlı iqtisadiyyata keçidin dəstəklənməsində rolu müstəsnadır. Beynəlxalq maliyyə institutları, mərkəzi banklar və beynəlxalq standartları müəyyən edən təşkilatlar dayanıqlı maliyyə çərçivəsinin formalaşdırılması istiqamətində qlobal və regional səviyyədə təşəbbüslər formalaşdırır. Dayanıqlı maliyyələşmə meyarlarının analitik və siyasət çərçivəsinə daxil edilməsi mərkəzi banklar və maliyyə requlyatorları üçün aktualdır (Qrafik 1). Son bir neçə ildə dayanıqlı maliyyəni təşviq etmək üçün requlyatorlar və mərkəzi banklar tərəfindən görülən tədbirlərin intensivliyi əhəmiyyətli dərəcədə artmışdır. Ölkə iqtisadiyyatının dayanıqlı inkişaf imperativlərinə uyğunlaşdırılmasının dəstəklənməsi məqsədilə AMB maliyyə sektorunun dayanıqlı maliyyəyə transformasiyasını özünün strateji prioritetləri sırasına daxil etmişdir.

**Qrafik 1. Mərkəzi bankların iqlim dəyişmələri məsələlərinin həllində iştirak zərurəti**




**Mərkəzi Bank tərəfindən ölkənin dayanıqlı inkişafında maliyyə sektorunun rolunun gücləndirilməsininin dəstəklənməsi və dayanıqlı maliyyə axınlarının təmin edilməsi məqsədilə 2023-2026-cı illəri əhatə edən Dayanıqlı Maliyyə üzrə Yol Xəritəsi hazırlanmışdır**. Yol xəritəsinin başlıca məqsədi iqlim və ekoloji, həmçinin sosial və idarəetmə amillərini nəzərə alan dayanıqlı maliyyə sisteminin formalaşmasını dəstəkləmək və maliyyə sabitliyini təmin etməkdir. Yol xəritəsi qabaqcıl beynəlxalq təcrübələr nəzərə alınmaqla maliyyə institutlarının maliyyə və investisiya qərar qəbuletmə və risklərin idarə edilməsi proseslərinə iqlim dəyişmələri və ESİ amillərin inteqrasiyasını, maliyyə bazarı iştirakçılarının istiqamətləndirilməsi məqsədilə müvafiq standartların və bələdçi sənədlərin işlənib hazırlanmasını və dayanıqlı maliyyə alətləri üçün ekosistemin formalaşdırılmasını əhatə edir. Qeyd edilən tədbirlər,

Yol xəritəsinin dörd strateji prioritet üzrə strukturlaşdırılmışdır (Qrafik 2). Strateji prioritetlər çərçivəsində görülən işlər bu bölmənin növbəti hissələrində öz əksini tapır.

### Qrafik 2. Yol xəritəsinin strateji prioritetləri




**Yol xəritəsi dayanıqlı maliyyə ekosisteminin qurulması üçün çoxşaxəli tədbirləri əhatə edir.** Yol xəritəsində qabaqcıl beynəlxalq təcrübələr nəzərə alınmaqla, iqlim dəyişmələri və ESİ meyarlarının Mərkəzi Bankın nəzarət çərçivəsinə, habelə maliyyə institutlarının strateji qərarvermə və risklərin idarə edilməsi sisteminə inteqrasiyası, bu sahədə müvafiq bazar standartlarının formalaşdırılması və dayanıqlı maliyyə alətləri üçün ekosistemin qurulması əhatə edilir. Müəyyən olunmuş geniş spektrli tədbirlər planı maliyyə sektorunun müxtəlif seqmentlərini, habelə bir sıra tədbirlərin müvafiq maraqlı tərəflərlə (dövlət qurumları, sektor assosiasiyaları, beynəlxalq tərəfdaşlar və s.) koordinasiya və əməkdaşlığını əhatə edir. Yol xəritəsi çərçivəsində 2023-cü il ərzində Mərkəzi Bank tərəfindən görülmüş işlərin qısa xronologiyası Qrafik 3-də göstərilir.

**Maliyyə bazarlarının strukturu nəzərə alınmaqla, dayanıqlı maliyyəyə keçid mərhələli qaydada həyata keçiriləcəkdir.** Bu istiqamətdə maarifləndirmə, bilik və bacarıqların artırılması üzrə təşəbbüslər maliyyə sektorunun bütün seqmentlərini əhatə edəcəkdir. İqlim dəyişmələri və ESİ amillərinin maliyyə institutlarının investisiya və maliyyələşmə qərarlarına və risklərin idarəedilməsinə inteqrasiyası ilkin mərhələdə təlimat və standartların verilməsi ilə dəstəklənən könüllü əsaslarla tənzimlənəcək, növbəti mərhələdə isə normativ bazaya daxil ediləcəkdir. Qabaqcıl beynəlxalq təcrübə və maliyyə sektoru üzrə bazar şərtləri nəzərə alınmaqla, yol xəritəsi üzrə müəyyən olunmuş tədbirlər strukturlu qaydada həyata keçiriləcəkdir

**Qrafik 3. Mərkəzi Bankın dayanıqlı maliyyə gündəliyi üzrə 2023-cü ildə görülmüş işlər**




## 3.1. Potensialın formalaşdırılması

**Maliyyə institutlarının dayanıqlı maliyyə üzrə potensialının artırılması**. IFC ekspertləri ilə birgə 2023-cü il ərzində maliyyə institutları üçün (bank, sığorta və investisiya şirkətləri) ESG prinsiplərinin korporativ idarəetmə sisteminə inteqrasiyası, dayanıqlı maliyyəyə keçid üzrə transformasiya modellərinə ESG risklərinin idarə edilməsi və dayanıqlı maliyyə üzrə hesabatlılıq üzrə silsiləvi təlimlər keçirilmişdir. Təlimlərdə ESG risklərinin idarə edilməsi ətraf mühit və sosial risklərin idarəetməsi sistemi, bu sistem üzrə məsul əməkdaşların rol və vəzifələri, korporativ idarəetmə aspektləri, dayanıqlı maliyyə hesabatlılığı üzrə standartlar və çərçivə sənədləri əhatə edilmiş, habelə praktiki çalışmalar edilmişdir. Bununla yanaşı, AMB həm maliyyə bazarları assosiasiyaları, həm də beynəlxalq maliyyə təşkilatları tərəfindən təşkil olunan tədbirlərdə təqdimatlarla çıxış etmişdir.

**Müvafiq beynəlxalq təşəbbüslərdə iştirak edilməsi və dayanıqlı maliyyə üzrə digər mərkəzi banklar və ya maliyyə bazarlarına nəzarət orqanları ilə texniki əməkdaşlığın təşkili**. Bununla bağlı, 2023-cü ilin noyabr ayın 08-09 tarixlərində Gürcüstan Mərkəzi Bankına təcrübə mübadiləsi təşkil edilmişdir. Təcrübə proqramı çərçivəsində dayanıqlı maliyyənin tətbiqi üzrə milli koordinasiya platforması, taksonomiyanın hazırlanması, dayanıqlı maliyyə alətlərinin tətbiqi, habelə iqlim dəyişmələri və ESG risklərinin qiymətləndirilməsi üzrə Gürcüstan Mərkəzi Bankının təcrübəsinin öyrənilmişdir. Beynəlxalq təcrübənin öyrənilməsi və təcrübə mübadiləsi məqsədilə bu sahədə əsas beynəlxalq qurum hesab olunan Maliyyə Sisteminin Yaşıllaşdırılması üzrə Mərkəzi Banklar və Nəzarət Orqanlarının Şəbəkəsinə (NGFS –

Network of Central Banks and Regulators for Greening Financial System) üzvlüklə bağlı müraciət edilmişdir. Hazırda üzvlük prosesi ilə bağlı müzakirələr davam etdirilir.

**Mərkəzi Bankın rəsmi internet səhifəsində dayanıqlı maliyyə haqqında məlumat bölməsinin yaradılması**. Dayanıqlı maliyyə üzrə məlumatlığın artırılmasına töhfə kimi Mərkəzi Bankın rəsmi internet səhifəsində Dayanıqlı maliyyə bölməsi yaradılmışdır. Bu bölmədə dayanıqlı maliyyə üzrə xəbərlər, hesabatlar və həm maliyyə institutları, həm də geniş ictimaiyyət üçün dayanıqlı maliyyə üzrə informativ xarakterli məlumatlar yer alır.

## 3.2. Ekosistemin və tənzimləmə çərçivəsinin formalaşdırılması

**ESG prinsiplərinin "Banklarda korporativ idarəetmə standartları" layihəsinə daxil edilməsi.** Dəyişikliklər dayanıqlı maliyyə və ESG anlayışlarının requlyativ çərçivəyə daxil edilməsi, dayanıqlı maliyyə risklərinin bankın strategiyasının formalaşdırılması, risklərin idarəedilməsi və korporativ idarəetməsi sisteminə inteqrasiyası məsələlərini əhatə edir. Belə ki, yeni tələblərə əsasən bankın uzunmüddətli dövr üzrə dayanıqlığını təmin etmək məqsədilə bankın strategiyasında fəaliyyətinə əhəmiyyətli təsiri olan və ya ola biləcək ekoloji (iqlim dəyişmələri, ətraf mühitin deqradasiyası, ekosistemdə pozuntular və s.), sosial (gender məsələləri, inklüzivlik, əmək münasibətləri, insan resurslarına investisiya və s.) və idarəetmə (təşkilati struktur, mükafatlandırma, işçi münasibətləri, müxtəliflik və bərabərlik və s.) amilləri (ESİ amilləri) nəzərə alınmalıdır. Habelə, yeni Standartlarda bankın dayanıqlılıq göstəricilərinə neqativ təsir edəcək risklər və çatışmazlıqlar barədə, habelə bunların aradan qaldırılması üzrə görülmüş və (və ya) görüləcək tədbirlər barədə Mərkəzi Bankın məlumatlandırılması nəzərdə tutulmuşdur.

**Dayanıqlı maliyyə üzrə təlimatın hazırlanması.** Maliyyə institutları üçün dayanıqlı maliyyə prinsipləri sənədinin layihəsi hazırlanmış və İFC ekspertlərinin rəyləri alınmışdır. Layihə 4 blok üzrə - biznes strategiyası, korporativ idarəetmə, risklərin idarəedilməsi və məlumatların açıqlanması – dayanıqlı maliyyə prinsiplərini müəyyən edir. Dayanıqlı maliyyə prinsiplərinin 2024-cü ilin birinci rübündə yekunlaşdırılaraq maliyyə institutlarına təqdim olunması nəzərdə tutulur.

**Dayanıqlı maliyyə taksonomiyasının hazırlanması**. Layihə komandası tərəfindən Azərbaycan üçün taksonomiya modelinin müəyyən edilməsi məqsədilə beynəlxalq təcrübə araşdırılmışdır. Taksonomiyanın ölkənin dayanıqlı inkişaf prioritetlərinə və gündəliyinə uyğun hazırlanması məqsədilə Mərkəzi Bank ilə yanaşı, energetika, iqtisadiyyat, ekologiya, maliyyə və digər aidiyyəti sahələr üzrə məsul dövlət qurumları, habelə maliyyə institutlarından ibarət Ekspert qrupu formalaşdırılmışdır. Ekspert qrupu tərəfindən taksonomiyanın formalaşdırılması üzrə müzakirələr aparılmışdır.

**Yaşıl istiqrazlar üzrə tənzimləmə çərçivəsinin formalaşdırılması**. Bu istiqamətdə yaşıl istiqrazlarla bağlı qanunvericiliyə dəyişiklik layihəsi hazırlanaraq hökumətə təqdim edilmişdir və hazırda müvafiq dövlət

qurumlarıla razılaşdırılma mərhələsindədir. Layihədə yaşıl istiqrazın anlayışı, onun emissiyasının məqsədi, yaşıl istiqraz emitenti və yaşıl istiqraza dair əsas parametrlər müəyyən edilmişdir. Hazırda Mərkəzi Bank tərəfindən sözügedən qanunvericilik layihəsi ilə paralel olaraq, ekoloji layihələrin dairəsi və həmin layihələrə dair meyarlar, yaşıl istiqrazların emissiyası qaydası, yaşıl istiqrazların yerləşdirilməsindən əldə olunan vəsaitlərin istifadəsi və idarə edilməsinə, habelə təqdim olunmalı və açıqlanmalı hesabatlara dair tələbləri və bir sıra digər məsələlərin müəyyən edilməsi məqsədilə müvafiq normativ akt layihəsi hazırlanmaqdadır.

**Yaşıl kreditləşmənin təmin edilməsi ilə bağlı tənzimləmə çərçivəsinə müvafiq dəyişikliklər edilməsi.** Belə ki, Mərkəzi Bankın “Aktivlərin təsnifləşdirilməsi və mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatların yaradılması Qaydası"nda ekoloji təmiz nəqliyyat vasitələrindən istifadənin stimullaşdırılması istiqamətində edilmiş növbəti dəyişikliklərə əsasən istehsal ili üzrə müvafiq meyarlara cavab verən elektrik və hibrid avtomobillərin alınmasına verilmiş kreditlər üzrə borcalanın yüksək borcun gəlirə nisbəti əmsalı ilə bağlı (45%+) əlavə ehtiyatlanma tələbindən istisna edilmişdir. Bununla yanaşı, Layihə komandası tərəfindən yaşıl kreditlərlə bağlı təlimat sənədi hazırlanmaqdadır.

## 3.3. İqlim və ESG risklərinin qiymətləndirilməsi

**İqlim dəyişmələri və ekoloji risklər üzrə qiymətləndirmənin aparılması**. Maliyyə institutlarının (bankların, sığorta şirkətlərinin və investisiya şirkətlərinin) dayanıqlı maliyyə və ESİ prinsipləri üzrə məlumatlığının ölçülməsi, bu istiqamətdə aparılan, habelə aparılması planlaşdırılan tədbirlərin öyrənilməsi və ilkin indikativ məlumatların toplanması məqsədilə Dayanıqlı maliyyə üzrə Sorğu həyata keçirilmişdir. Sorğu maliyyə institutları tərəfindən iqlim dəyişmələri habelə ESG amillərinin əhəmiyyətini, ESG prinsiplərinin tətbiqinə hazırlıq vəziyyətini, cari bazar praktikasını və maliyyə institutlarının gözləntilərini müəyyən etməyə imkan vermişdir. Sorğu nəticələri göstərmişdir ki, maliyyə institutları iqlim dəyişmələri və ESİ risklərinin təsirlərinin orta və uzunmüddətli dövrdə daha yüksək olacağını gözləyir (Qrafik 2).

Bununla yanaşı, maliyyə institutlarının dayanıqlı maliyyəyə transformasiyası və ESİ prinsiplərinin tətbiqi üzrə başlıca gözləntiləri və təklifləri maarifləndirmə və məlumatlandırma tədbirlərinin keçirilməsi, hüquqi-normativ və tənzimləmə çərçivəsinin hazırlanması, hesabatlılığın formalaşdırılması və dayanıqlı maliyyə alətləri üzrə güzəştlərin tətbiqi istiqamətində olmuşdur. Ümumilikdə, maliyyə institutları tərəfindən ESİ amillərinin əhəmiyyəti nisbətən başa düşülür və pərakəndə şəkildə ekoloji və sosial layihələr icra edilməkdədir. Sorğu nəticələri emal edilərək Mərkəzi Bankın rəsmi internet səhifəsində Dayanıqlı maliyyə bölməsində yayımlanmışdır.

**<u>Qrafik 2.</u> Maliyyə institutlarının iqlim dəyişmələri və ESİ risklərinin təsirləri üzrə gözləntiləri (aşağı, orta, yüksək)**




Qeyd 1: Qrafikdəki dairələrin diametri vizual olaraq maliyyə institutlarının sayını əks etdirir.
Qeyd 2: Şaquli ox maliyyə institutlarının sayını göstərir.

## ÜÇÜNCÜ BÖLMƏ

### 4. Növbəti addımlar

**Mərkəzi Bank tərəfindən dayanıqlı maliyyə üzrə mütəşəkkil şəkildə müvafiq tədbirlərin görülməsini təmin edəcəkdir. I**qlim dəyişmələrinin mitiqasiyası və adaptasiyasının təmin edilməsində İqlim maliyyəsi və dayanıqlı maliyyə əsas alətlərdən biridir. Bu isə maliyyə bazarlarında adekvat likvidliyin təmin edilməsi ilə yanaşı mövcud investisiya baryerlərinin aradan qaldırılması üçün müvafiq addımların atılması labüddür.

Bununla bağlı, Mərkəzi Bank tərəfindən maliyyə sektorunun iqlim dəyişmələri və ESG risklərinin idarə edilməsi potensialının artırılması və dayanıqlı maliyyə axınları üçün əlverişli ekosistemin formalaşdırılması məqsədilə çoxşaxəli və əhatəli tədbirlərin görülməsi davam etdiriləcəkdir. Bu tədbirlər beynəlxalq təcrübə və yerli maliyyə bazarları şərtləri nəzərə alınmaqla həyata keçiriləcəkdir. Mərkəzi Bank 2024-cü il ərzində aşağıdakı istiqamətlərdə tədbirlərin davam etdirilməsini hədəfləyir:



## Əlavə 1. Azərbaycan üçün aktual iqlim dəyişmələri və ekoloji risklər və fürsətlər

Azərbaycan üçün **aktual olan fiziki risklər** aşağıdakılar müəyyən edilmişdir[3]:

a. *Daşqın və quraqlıqlar*. Mərkəzi Aran və cənub-şərqi rayonlar daşqın riski, Böyük Qafqaz dağlarının cənub yamacında yerləşən rayonlar isə palçıq sürüşmələri riskinə qarşı həssasdır. Son 10 illiklərdə Azərbaycan ərazisində kiçik dağ çaylarında sel və daşqınların sayı və gücü artmışdır. Quraqlıqların baş verməsi ehtimalının artması kənd təsərrüfatının məhsuldarlığına təsir edəcəyi gözlənilir.

b. *Kənd təsərrüfatına təsiri.* Temperatur və yağıntı normasında dəyişkənlik birbaşa yolla məhsuldarlığa, dolayı yolla torpağın üzvi hissəsinə təsir edəcəkdir. Bu isə zəncirvari şəkildə ərzaq məhsullarının istehsalına təsirini göstərəcəkdir. Qeyd etmək lazımdır ki, ölkənin kənd təsərrüfatı məhsullarının ~80%-i yağış suları ilə suvarılır.

c. *Sahilyanı ərazilərin həssaslığı.* 2015-ci ildə aparılmış hesablamalara əsasən sahilyanı ərazilərdə məskunlaşmış ölkə əhalisinin 4 milyon nəfər və sənayə mərkəzlərinin 75%-i cəmləşmişdir. Xəzər dənizi səviyyəsində gözlənilən azalma və temperatur artımı xüsusilə Bakı iqtisadiyyatına təsir edəcəkdir.

d. *"Şəhər istilik adası" effekti.* Şəhər əhalisinin sayının artması səbəbilə yaranan "şəhər istilik adası" effektinin temperatur artımına arzuolunmayan istiqamətdə təsir etməsi istisna edilmir. Bu effekt xüsusilə yay aylarında özünü daha çox göstərərək, əhalinin sağlamlığına (o cümlədən, səhiyyə xərclərinin artmasına səbəb ola bilər), xidmət sektorunda məhsuldarlığa və əmək məhsuldarlığına mənfi təsir göstərəcəkdir.

e. *Xəzər dənizinin səviyyə tərəddüdü* - İqlim dəyişikliyi fonunda Xəzər dənizinin səviyyə tərəddüdü Xəzər dənizinin biomüxtəlifliyinə və ekosisteminə ciddi təhdiddir.

f. *Su çatışmazlığı* - Azərbaycanın şirin su ehtiyatları az olmaqla qeyri bərabər paylanılmışdır. Ölkənin şirin su ehtiyatlarının təxminən 70 faizi ölkə hüdudlarından kənarda formalaşır.Su qıtlığı ilə bağlı risklər gələcəkdə artmağı gözlənilir. Şirin su ehtiyatanın çatışmazlıqı bütün ekoloji, sosial və iqtisadi sahələrə mənfi təsir göstərəcəkdir.

g. *Torpaqların deqradasiyası* - Azərbaycan üçün əsas aktual risklərdən biridir. Qlobal iqlim dəyişikliyi və səhralaşma proseslərinin getdikcə daha aydın təzahür etməsi bu problemi daha da aktuiallaşdırır. Torpaqların şoranlaşması, eroziyası kənd təsərrüfatı və davamlı inkişaf üçün ciddi təhlükə yaradır.

Azərbaycan üçün yuxarıda qeyd olunan fiziki və keçid riskləri müvafiq mitiqasiya və adaptasiya tədbirlərini zəruri edir. Bəzi potensial "yaşıllaşdırma" tədbirlərini həyata keçirmək və nəticəsini qısa müddətə əldə etmək mümkün olsa da, digərləri uzunmüddətli nəticələri hədəfləyir, mürəkkəb və uzunmüddətli icra planı tələb edir. Məsələn, resursların səmərəli istifadəsinə (məsələn, enerji tələbatının idarə edilməsi, enerji səmərəliliyi) və kənd təsərrüfatının intensivləşdirilməsinə, torpaq ehtiyatlarının

---

"Azerbaijan: towards green growth", DB, sentyabr 2022, Ekspert rəyi

səmərəli istifadəsinə, şəhər planlaşdırmasına, su və tullantıların idarə edilməsinə qoyulan investisiyaları daha tez fayda verən tədbirlərə nümunə kimi qeyd etmək mümkündür. Belə tədbirlərə günəş və külək kimi rəqabət qabiliyyətli bərpa olunan enerji mənbələrinə keçidi təşviq edən investisiyaları da nümunə göstərmək olar. Digər tərəfdən, karbon qiymətləndirilməsi, yanacaq və elektrik subsidiyaları kimi istehlakçı və investor seçimlərinə təsir edən islahat tədbirləri öz faydasına daha uzunmüddətli dövrdə göstərməklə yanaşı, tətbiqi daha uzun zaman alır və daha çox xərc tələb edir.

Ölkənin həm qlobal təşəbbüslərdə götürülən öhdəliklərinin, həm də sosial-iqtisadi inkişafa dair milli prioritetlərinin realizasiyası dövlət vəsaitləri ilə yanaşı özəl sektorun vəsaitlərinin də yönəldilməsini zəruri edir. Özəl sektorun yaşıl, o cümlədən sosial layihələrə investisiyası çoxsaylı iqtisadi və sosial faydalarla yanaşı, innovativ həllər gətirəcək və səmərəliliyi təmin edəcəkdir. Özəl sektor vəsaitlərinin yaşıl, o cümlədən sosial investisiyalara yönləndirilməsi məqsədilə dövlət tərəfindən dəstək və təşviq mexanizmlərinin tətbiqi, yaşıl maliyyə alətlərinin formalaşdırılması, dayanıqlı maliyyə taksonomiyasının hazırlanması zəruridir.

Kənd təsərrüfatı və meşə təsərrüfatı üçün torpaq və su ehtiyatlarından, o cümlədən digər təbii resurslardan dayanıqlı istifadə iqtisadi səmərə verməklə yanaşı iqlim dəyişmələri, habelə ekoloji risklərə qarşı dayanıqlığın təmin edilməsində əhəmiyyətli olacaqdır. Yeni texnoloji və innovativ həllərdən istifadə aşağı karbonlu iqtisadiyyata keçid, habelə biomüxtəlifliyin, ekosistemin və onların iqtisadi və sosial təsirlərinin ölçülməsi üçün ilkin şərtlərdən hesab olunur. Aktivlərin diversifikasiyası və yaşıllaşdırma potensialı olan iqtisadi sektorlar üzrə yeni iş imkanlarının yaranması məşğulluğun artırılmasına müsbət təsir göstərəcəkdir. Dəyər zəncirinin bütün halqaları üzrə bazar əsaslı və "ağıllı" siyasət dəyişiklikləri, bərpa olunan enerji mənbələrindən istifadənin artırılması, aşağı karbon tutumlu istehsala keçid "yaşıllaşdırılma" prosesini sürətləndirəcəkdir.

Xəzər dənizi hövzəsi də öz növbəsində yaşıl həllər üçün yeni fürsətlər və imkanlar təklif edir. Müəyyən zaman tələb etməsinə baxmayaraq, Xəzər dənizində turizm və akvakulturanın dayanıqlı genişləndirilməsi, habelə sahil ərazilərində bərpa olunan enerji mənbələrindən istifadə kimi fürsətlər yaşıl iqtisadiyyata keçidin dəstəklənməsində əhəmiyyətli rol oynaya bilər. Azərbaycanın zəngin təbii sərvəti aşağı karbon tutumlu iqtisadiyyata keçidi, təmiz ətraf mühit və yaşıl inkişafı dəstəkləmək üçün əlverişlidir. Həm özəl, həm dövlət vəsaitlərinin dekarbonizasiya, və diversifikasiyaya tədbirlərinə yönləndirilməsi yaxın müddətli dövrə dayanıqlı sosial-iqtisadi inkişafın təmin edilməsində dəstək olacaqdır.